# Məşhur yazıçıların qəribə xüsusiyyətləri



*– Alman şair və filosof Fridrix Şiller çürük almalardan ilham alarmış. Ədibin yazı masasında həmişə çürük almalardan ibarət yeşik olarmış. Maraqlısı budur ki, onun ən yaxın dostu İ.Höte bu haqda yazmasaydı, Şillerin bu qəribə verdişindən bəşəriyyət xəbərsiz olacaqdı.*

*Şiller həmçinin iş otağında yalnız qırmızı pərdələrə üstünlük verirmiş. Əsər üzərində işləyəndə isə ayaqlarını soyuq suya qoyurmuş ki, daha da gümrah olsun.*



**– "Faust"un müəllifi İ.Höte qəribəliklərinə görə dostu Şillerdən heç də geri qalmayıb. Məlumdur ki, ədib yalnız qapalı məkanda yaradıcılıqla məşğul olurmuş. Şair yelçəkərdən çox qorxurmuş. Və taleyin acı oynuna bax ki, o məhz elə soyuqdəymədən də vəfat edib. Onun "Xahiş edirəm, pəncərəni örtün!" ifadəsi isə yaddaşlarda qalıb. Bundan başqa Hötenin bəzi bioqrafiyaçıları qeyd edirlər ki, o, itlərin hürməsinə, sarımsaq iyinə və eynəkli adamlara nifrət edərmiş.**



*– Balzakın qəribə xüsusiyyətləri haqda çox şeylər danışırlar. Deyilənlərə görə, Balzak kofe içməmiş heç nə haqda düşünə bilmirmiş. Belə ki, o gün ərzində 50 fincan kofe içirmiş. Məşhur əsərlərindən olan "Bəşəri komediya"nı qələmə alarkən 15 min fincan tünd qəhvə içib.*

*Balzak kofe haqda yazırdı: - "Qəhvə bütün orqanizmi yarış atı kimi sürətli hərəkətə gətirir. Elə bundan sonra hər şey daha həyəcanlı hal alır. Nəticədə, ideyalar bütöv bir ordu kimi dayanmadan irəliləyir." Bu içki sayəsində yazıçı 48 saat dayanmadan yazarmış. Bir müddət sonra o, kofe dənələrini çeynəməyə başlayır və bir qədər keçdikdən sonra kofe artıq Balzaka təsir etmir. Belə deyirlər ki, yazıçının səhhətini məhz kofedən asılılığı pozur. Başqa bir ehtimala görə, O.Balzak qəhvə zəhərlənməsindən dünyasını dəyişib.*



***Hazırladı: ZÜMRÜD***